Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Möhkəm ideoloji əsaslar Azərbaycanı tərəqqinin yeni mərhələsinə çıxarır...

## Azərbaycançılıq ideyasının təbliği

**İkinci Qarabağ müharibəsində Azərbaycanın qazandığı möhtəşəm zəfər indi dünya miqyasında azərbaycançılıq ideyasının təbliği və yayılmasına yeni çalarlar gətirib. Qələbə sözügedən ideyaya maraq və bağlılığı daha da artırıb. Birmənalı həqiqətdir ki, qazanılmış zəfər azərbaycançılıq ideyası ətrafında milli birlik və həmrəyliyi daha da gücləndirib.**

### Azərbaycanın nailiyyətlərinin əsasında duran ideologiya...

Azərbaycanın zəfərinin elə azərbaycançılıq ideologiyasının potensialı kontekstində analizi göstərir ki, bu, ölkənin qarşıdakı dövr ərzində də nailiyyətlərinin mərkəzində dayanmaqda davam edəcək. Eyni zamanda məhz bu ideya dünya azərbaycanlılarının bundan sonra da sıx birləşməsinin əsas ideyaverici qüvvəsi olacaq.

Azərbaycanın tarixində önəmli hadisələrdən biri kimi yaddaşlarda qalacaq Dünya Azərbaycanlılarının V Qurultayına da bu müstəvidən yanaşmaq mümkündür. Xatırladaq ki, dünya azərbaycanlılarını təmsil edən əsas diaspor təşkilatlarının rəhbərləri, nümayəndələri Şuşa şəhərində Zəfər qurultayına toplaşacaqlar. Zəfər qurultayı son illər, xüsusilə də müharibə dövründə yüksək təşkilatlanma, birlik nümayiş etdirən, Azərbaycan həqiqətləri haqqında davamlı maarifləndirmə işi aparan, ölkənin haqq səsini daha yüksək instansiyalara çatdıran diasporumuzun ilk böyük görüşü olacaq. Bu mənada sözügedən görüş əvvəlkilərdən əhəmiyyətli dərəcədə fərqlənəcək. İlk növbədə o baxımdn ki, Zəfər qurultayı dünya azərbaycanlılarının daha fəal və məqsədyönlü fəaliyyəti, sıx birləşmələri üçün vacib əhəmiyyət daşıyır. Qurultay xaricdə yaşayan azərbaycanlıların ümumi məqsəd, vahid azərbaycançılıq ideyası ətrafında birləşməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu, bir daha təsdiq edir ki, azərbaycançılıq ideyası soydaşlarınmızın birliyi, eyni zamanda vahid məqsədə - Azərbaycacının tərəqqisinə xidmət baxımından həyati önəmə malikdir. Məsələnin təbii ki, başqa önəmli tərəfləri də mövcuddur. İlk növbədə o baxımdan ki, Dünya Azərbaycanlıların V Qurultayının Şuşada keçirilməsi qalib bir xalq olaraq tarixi, siyasi və mənəvi cəhətdən müstəsna əhəmiyyət ə malikdir. Bununla dünyaya açıq mesaj verilir ki, azərbaycanlılar vahid ideologiyaya xidmət edir, harada yaşamalarından asılı olmayaraq, Vətən, Azərbaycan uğrunda fəaliyyət və mübarizəyə hazırdırlar. Onu da qeyd edək ki, indi yeni hədəflər də əvvəlkilərdən fərqlidir. Əvvəllər, yeni İkinci Qarabağ müharibəsinə qədər Azərbaycanın diaspor fəaliyyəti ərazilərimizdə erməni işğalını sonlandırmaq ölkə həqiqətlərinin dünyaya çatdırılmasından ibarət idisə, indi hədəflər ayrıdır. Belə ki, hazırda əsas məqsəd Azərbaycanın regionda yaratdığı yeni reallıqları dünyaya çatdırmaqdır. Xatırlatmaq lazım gəlir ki, Vətən müharibəsində Azərbaycan xalqının qəhrəman oğulları döyüş meydanında zəfər tarixi yazırdısa, dünyanın dörd bir yanında yaşayan azərbaycanlılar da müxtəlif ölkələrdə həqiqətləri dünyaya bəyan edirdilər. Bu da qələbənin əldə edilməsində heç də az rol oynamayıb. İndi də Azərbaycanın diaspor nümayəndələri azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşərək yaşadıqları ölkələrdə milli maraqlarımızı təbliğ edir, Azərbaycan həqiqətlərini dünyaya çatdırırlar.



### Vətəndaşlıq dəyərləri ön plandadır

Məlumdur ki, azərbaycançılıq Azərbaycanın müstəqilliyini və demokratik inkişafını qorumağa yönəlmiş bir ideologiya kimi formalaşıb və bu baxımdan təcavüzkar millətçiliyi, şovinizmi qəbul etmir. Azərbaycançılıq ideyalarının əsasında millətçilik deyil, vətəndaşlıq dəyərləri durur. onun məqsədi Azərbaycanın çoxmillətli xalqlarının demokratik inkişafını və konsolidasiyasını təmin edə biləcək dəyərlər sistemini formalaşdırılmasına hesablanıb. Ötən zaman bu istiqamətdə nailiyəətlərin əldə edildiyini təsdiqləyir. Bunun yenə ən bariz nümunəsi Dünya Azərbaycanlıların V Qurultayıdır. Burada başqa millətlərdən olub Azərbaycanı təmsil edən şəxslər də iştirak edir. Onları məhz vətəndaşlıq dəyəri birləşdirir.

Sözügedən dəyər Azərbaycan diaspor hərəkatının tarixində təşkilatlanmanın əsaslarını möhkəmləndirməklə yanaşı, onun növbəti, daha fərqli və yüksək mərhələyə keçməsinə də xidmət edir. Yeni təşkilatlanma və birlik diaspor tarixində görünməmiş bir vüsət alıb. Zəfər Qurultayının məhz Şuşada keçirilməsi Vətənimizin öz övladlarına verdiyi dəyərin bariz nümunəsi olmaqla bərabər, onların vahid ideologiya ətrafında sıx birliyini təmin edir. Bu, həm də onun təsdiqidir ki, azərbaycançılıq ideologiyasının təbliği və təşviqi istiqamətində sistemli, məqsədyönlü tədbirlərin həyata keçirilməsi bundan sonra da davam etdirilməli, dövlətin fəaliyyətində ön planda yer almalıdır. Buna paralel olaraq ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin sülh, sabitlik və təhlükəsizlik şəraitində yaşaması, islahatlar nəticəsində siyasi qüvvələrin ümummilli məsələlərdə birliyi diqqət mərkəzində olmalıdır. Bunun üçün azərbaycançılıq ideologiyasıdan sıx istifadə müstəsna əhəmiyyət kəsb edir. Nəzərə alınmalıdır ki, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, azərbaycançılıq ideyasının, milli-mədəni irsimizin təbliği, soydaşlarımızın hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı görüləcək işlər çoxdur. Bunun üçün xalq-dövlət birliyi daha da güclənməli, dünya azərbaycanlıları , azərbaycançılıq ideyasına sadiq qalmalı, bu ideologiya ətrafında daha sıx birləşməlidir. Elə Azərbaycan dövləti də məhz bu istiqamətdə müvafiq addımlar atır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**